# Zəfərin gəncləri

## İlham Əliyevin "dəmir yumruğu"na çevrilən vətənpərvər gəncliyimiz 30 illik işğala cəmi 44 günə son qoydu

"...Müharibədə bütün nəsillərin nümayəndələri iştirak ediblər, qəhrəmanlıq göstəriblər. Amma hər kəs bilməlidir ki, əsas missiyanı mənim prezidentlik dövrümdə yetişən gənclər yerinə yetiriblər, 2003-cü ildə uşaq olan gənclər yerinə yetiriblər..."

Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2021-ci il martın 20-də qalibiyyət zirvəmiz Şuşadan - Cıdır düzündən xalqa müraciəti zamanı qürurla bəyan etdiyi kimi, Vətən müharibəsində qazandığımız şanlı Qələbədə gənc nəslin misilsiz rolu oldu.

Ötən müddət ərzində Prezident İlham Əliyevin rəhbərliyi altında gənc nəslin tərbiyə edilməsi istiqamətində də məqsədyönlü siyasət yürüdüldü və elə gənc nəsil yetişdirildi ki, onlar vətən uğrunda gözlərini qırpmadan irəli atıldılar. Yüksək vətənpərvərlik ruhunda yetişən gənclərimiz Vətən müharibəsində qanları, canları bahasına torpaqlarımızı düşmən işğalından azad etdilər.

Həmin qəhrəman gənclərin arasında bir zamanlar yurd-yuvasından didərgin düşərək məcburi köçkünə çevrilən körpələr də var idi və bu da İlahi ədalətin qələbəsi idi ki, onlar onilliklərin ardından azman igidlər kimi düşmənin üzərinə yeriyib, mənfurlara divan tutaraq qisaslarını almışdılar...

### *Gənclərin rifahına xidmət edən siyasət*

"Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir".

Vaxtilə Ulu Öndər Heydər Əliyevin gənclərin ölkə həyatında oynadığı müstəsna rolla bağlı dediyi bu müdrik kəlamda olduğu kimi, Vətən müharibəsində Azərbaycan gəncliyi öz sözünü deyərək, həm də xalqımızın gələcək həyatına işıqlı yol açdı.

Bu cür vətənpərvər gənclərin yetişdiyi mühit isə, heç şübhəsiz, ötən müddət ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən gənclər siyasəti sayəsində formalaşdırılmışdı.

"Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram", - deyə gənclərə olan yüksək etimadını dilə gətirən dövlət başçısı İlham Əliyev Azərbaycan gəncliyinin hərtərəfli inkişafı üçün mükəmməl strategiya həyata keçirib. Xüsusən də gənclərimizin təhsili, eləcə də potensiallarının üzə çıxarılması və digər sahələrdə mühüm dövlət proqramları icra olunub.

Prezident tərəfindən "2005-2009-cu illərdə Azərbaycan gəncliyi", 2006-2010-cu illər ərzində "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə", "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə", "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası", "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" kimi mühüm dövlət proqramları təsdiq edilib.

Dövlət başçısı İlham Əliyevin 2007-ci ilin ölkəmizdə "Gənclər ili" elan edilməsi ilə bağlı sərəncamı isə gənclərimizin hərtərəfli inkişafında müstəsna rol oynayıb.

Heç şübhəsiz, İlham Əliyevin rəhbərliyi altında gənclərlə bağlı həyata keçirilən siyasətin ana xəttini onların milli ruhda yetişdirilməsi təşkil edib.

### *Qələbəmizi şərtləndirən amil*

"Bizim vətənpərvərlik məsələləri ilə bağlı çox fəal siyasətimiz olmuşdur. Gənc nəsli vətənpərvərlik ruhunda tərbiyə etmək Prezident kimi mənim siyasətimin əsas istiqamətlərindən biri idi və buna nail olduq", - deyə parlaq Zəfərimizin ikinci ildönümündə Şuşada hərbçilərlə görüşü zamanı qalib komandan İlham Əliyev bir daha gənclərimizdə olan vətənpərvərlik hissini yüksək dəyərləndirmişdi: "Gənclərimiz vətənpərvərdir, Vətənə bağlıdır və İkinci Qarabağ müharibəsi bunu göstərdi. Bir daha demək istəyirəm, heç vaxt Qarabağı görməyən gənclərimiz Qarabağ uğrunda ölümə getməyə hazır idilər və ölümə gedirdilər, cəmiyyətdə milli birlik, milli həmrəylik ideyaları üstünlük təşkil etdi".

Xalqımız Azərbaycan gəncliyinin vətən eşqinin əzminə hələ 2016-cı ildə Aprel döyüşləri zamanı şahidlik etmişdi. Vətənpərvər gənclərimiz cəmi bir neçə günə düşmənin külünü göyə sovuraraq, Lələtəpə yüksəkliyində Azərbaycan bayrağını dalğalandıraraq, işğal altında olan digər torpaqlarımızın da tezliklə azadlığına qovuşdurulacağının müjdəsini vermişdilər.

Eləcə də 2020-ci ilin iyul ayından etibarən Ermənistan silahlı qüvvələrinin Tovuz rayonuna hücumundan sonra gənclərimiz könüllü şəkildə ordu sıralarına qoşulmaq istəyini bildirmişdilər. Həmin vaxt dövlət başçısının çağırışına səs verən on minlərlə vətən övladı işğal olunmuş torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə iştirak etmək üçün arzusunu ifadə etmişdi.

Vətən sınağına çəkildiyimiz həmin çətin günlərdə İlham Əliyev idarəçiliyinin yetirmələri, vətənpərvər gənclərimiz misilsiz igidlik, şücaət göstərdilər. Canları, qanları bahasına torpaqlarımızı işğaldan azad edərək, yüzminlərlə keçmiş məcburi köçkünün yurd həsrətinə son qoydular, xalqımızı məğlubiyyət uçurumundan qalibiyyət zirvəsinə ucaltdılar.

Bəli, torpaqlarımızın 30 illik əsarətdən azad edilməsində rol oynayan ən önəmli amillərdən biri gənc nəslin nümayiş etdirdiyi misilsiz vətənpərvərlik ruhu oldu. Gerçəklikdir ki, ölkənin hər nə qədər güclü iqtisadiyyatı, müasir silah-sursatı olsa da, Vətən uğrunda döyüşməyi özünün müqəddəs borcu hesab edən vətəndaşlar yetişməzsə, bu imkanların hamısı faydasızdır.

Prezident İlham Əliyev də hər zaman vurğulayır ki, gənclər vətənpərvərlik ruhunda yetişərək öz canlarını fəda edib qanı bahasına düşmənin əlindən müqəddəs torpaqlarımızı ala bildilər. Bütün bu faktorların vəhdəti bizim Qələbəmizi şərtləndirdi.

Azərbaycanın igid oğullarının torpaqlarımızın işğaldan azad edilməsi uğrunda çıxdığı müqəddəs yürüşün hər bir günü zəfər gününə çevrildi. Hər gün qəhrəmanlarımız irəli getdi və 44 gün ərzində bir dəfə də olmadı ki, igid döyüşçülərimiz düşmən tapdağından azad etdikləri ərazilərdən bir qarış belə geri çəkilsinlər. Çünki Ali Baş Komandanın "İrəli!" əmri ilə mənfur düşmən üzərinə yeriyən cəsur döyüşçülərimiz "bu yolda öldü var, döndü yox" deyərək çıxmışdılar haqq savaşına.

2021-ci il yanvarın 15-də qəhrəman oğullarımızın açdığı Zəfər yolu ilə Şuşaya səfər edən Müzəffər Ali Baş Komandan bu müharibəni XXI əsrin müharibəsi adlandırmışdı. Qalib sərkərdə İlham Əliyev həmin gün döyüşçülərlə görüşü zamanı səsləndirmişdi ki, biz bir gün belə geri addım atmadıq. Bu, müharibələrdə çox nadir hallarda müşahidə edilən bir mənzərədir: "Müharibələrdə hücumlar olur, geriyə çəkilmə olur, manevrlər olur, biz isə hər gün qabağa gedirdik. Hər həftə onlarca yaşayış məntəqəsini işğalçılardan azad edirdik".

### *Mərd oğullar Vətən sınağından üzüağ çıxdılar*

Vətən müharibəsinin dünya hərb salnamələrinə qızıl hərflərlə həkk olunan həmin 44 günü ərzində Müzəffər Sərkərdə İlham Əliyevin komandanlığı altında rəşadətli Azərbaycan Ordusu düşmənin işğal müddətində ərazilərimizdə qurduğu, "keçilməz" hesab etdikləri bütün istehkamlarını sıradan çıxardaraq, "yenilməz" bildikləri Ermənistan ordusunu məhv edərək, tarixi Qələbə çaldı. Qəhrəman oğullarımız torpağımıza göz dikən mənfurları qarşılarında diz çökdürüb yalvarmağa məcbur etdilər. Vətən uğrunda canını qurban verən şəhidlərimizin qanlarını yerdə qoymadılar, tarixin müxtəlif zamanlarında erməni faşizminin qurbanına çevrilən, soyqırımına məruz qalan soydaşlarımızın qisasını layiqincə aldılar.

Əsrlərə bərabər həmin 44 gün ərzində öz şücaətləri ilə igid əsgərlərimizin hərəsi bir qəhrəmanlıq dastanı yazdılar. Ana torpağa olan tükənməz sevgilərindən, haqlı olmalarından, düşmənə nifrət hisslərindən güc alaraq savaşa atıldılar, son damla qanlarına qədər vuruşdular. Bu yolda canlarını qurban verməkdən belə çəkinmədilər, şəhid, qazi oldular, bir öldülərsə, min dirildilər və düşmənə aman vermədilər.

### *Bizi Qələbəyə aparan vətənpərvərlik hissi*

"On yeddi ildir ki, mən Azərbaycanın rəhbəriyəm. Bu illər ərzində yetişən insanlar bu torpaqları azad etdilər. Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. 2003-cü ildə 10 yaşı, 15 yaşı olanların bu gün 27-32 yaşı var. Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi".

Dövlət başçısının özünün də vurğuladığı kimi, onun prezidentliyi dövründə formalaşan vətənpərvər gənclik İkinci Qarabağ savaşının öncülləri oldu.

Azərbaycanın vətənpərvər övladlarının doğma yurdlarımız uğrunda nümayiş etdirdikləri şücaət, qəhrəmanlıq və fədakarlıq bizə əbədi Zəfər bəxş etdi.

Vətən müharibəsində İlham Əliyevin "dəmir yumruğu"na çevrilərək düşmənin başını əzən mərd oğullarımız indi də gecə-gündüz, canla-başla torpaqlarımızın keşiyində durublar. Bu qəhrəman igidlər düşmənin ərazilərimizə qarşı istənilən hücumunun, təxribatının qarşısını almaq və mənfurları məhv etmək əzmindədirlər.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2022.- 25 dekabr.- S.13.